# Əli Şirin ŞÜKÜRLÜ - 60



İstedadlı şair Əli Şirin Şükürlünü 60 illik yubileyi münasibətilə təbrik edirik.

Əli Şirin Şükürlü 1986-cı ildə Bakı Dövlət Universitetinin tətbiqi riyaziyyat fakültəsini, 2006-cı ildə Azərbaycan Dövlət İqtisad Universitetini bitirib. 1986-cı ildən etibarən elmi, 1991-ci ildən elmi-pedaqoji fəaliyyətlə məşğul olub. Fəlsəfə doktoru (riyaziyyat-ehtimal nəzəriyyəsi), fəxri professorudur. Müxtəlif dillərdə çap olunmuş elmi, elmi-publisistik məqalələrin, ali məktəb tələbələri üşün "Ehtimal nəzəriyyəsinin elementləri" adlı metodik vəsaitin, 1 elmi-populyar kitabın müəllifidır. Hazırda birliyin fəlsəfəsi ixtiisası üzrə elmlər doktorluğu dissertasiya işi üzərində işləyir. BSU-nun nəzdində yaradılmış Yaradıcılıq fakültəsində 2013-2015-ci tədris illərində elmi təfəkkür və poeziya (öz konsepsiyası əsasında hazırlanmış "Elmin fəlsəfəsinin bədii yaradıcılıqla ifadəsi") mövzusunda mühazirələr oxumuşdur. Elmi-populyar üslubda yazılmış "Ədəbi suprematizm və Dünyaya yeni baxış" adlı kitaba müəllifin elmi-fəlsəfi konsepsiyası əsassında ərsəyə gələn iki müxtəlif-intellektual poeziya haqqında nəzəriyyəsi və bu nəzəriyyənin formalaşmasında mühüm rol oynayan riyazi qanunauyğunluq əsasında qurduğu fəlsəfi model daxil edilmişdir. "Zərrə boyda sevgi", "Köksümdə çarmıxa çəkilmiş ürək", "Uçuşa bənzər","Xoşbəxtlik ehtimalı", "Ədəbi suprematizm və Dünyaya yeni baxış". Ehtimal nəzəriyyəsinin elementləri kitabları maraqla qarşılanmışdır. N.Qarin-Mixaylovski, K.İ.Çukovski, Robert Stivenson, O.Henri, Herbert Uels, Vislava Şimborskanın yaradıcılığından nünunələr onun tərcüməsində Azərbaycan oxucularına çatdırılmlşdır. Polşa Səfirliyi və AYB-nin "2011-ci Çeslay Miloş ili" ilə əlaqədar keçirdiyi ədəbi müsabiqədə "Xoşbəxtlik ehtimalı" adlı əsəri I diploma layiq görülmüşdür.

Hörmətli Əli Şirin müəllimi 60 illik yubileyi münasibətilə bir daha təbrik edir, ona uzun, sağlam ömür, yaradıcılıq uğurları, arzulayırıq.

**Azərbaycan Yazıcılar Birliyi**

**Ədəbiyyat qəzeti. - 2023. - 2 dekabr, № 46. - S. 25.**